# YEVLAX-AĞCABƏDİ ÇÖKƏKLİYİNİN ŞİMAL-QƏRB HİSSƏSİNDƏ KOMPLEKS GEOFİZİKİ ÜSULLARLA MEZOZOY ÇÖKÜNTÜLƏRİNİN NEFTLİLİK -QAZLILIQ PERSPEKTİVLİYİ BARƏDƏ

T.X.Niyazov, M.Ə.Mahmudova, M.A.Bəkirov

*Azərbaycan, "Neftqazelmitədqiqatlayihə" İnstitutu*

Hazırda dərin qatların, o cümlədən Neogen və Paleogen çöküntülərindən sonra ən perspektivli və böyük potensiala malik olan Mezozoy çöküntülərinin neftlilik-qazlılıq perspektivliyinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu çöküntülər Azərbaycan ərazisində, o cümlədən Yevlax-Ağcabədi çökəkliyi və onun şimal-qərb hissəsində geniş yayılmışdır.

Yevlax-Ağcabədi çökəkliyinin şimal-qərb hissəsi üzrə neft-qaz perspektivli sahələrin seçilməsi məqsədilə seysmik və qravimaqnitometrik kəşfiyyat üsullarının kompleks tətbiqi ilə aparılmış işlərin nəticələri yenidən araşdırılmış, ayrılmış yataq tipli anomaliyaların (YTA) təbiəti təhlil edilmiş, Mezozoy çöküntüləri ilə əlaqədar YTA-lar seçilmiş, onların plan vəziyyəti dəqiqləşdirilmiş və yerləşmə sxemi hazırlanmışdır. Təbaşir çöküntüləri ilə əlaqədar təyin olunmuş seysmik və qravimetrik anomaliyalar müqayisə edilmiş və onların əsasən bir-birini təsdiq etdiyi müəyyənləşdirilmişdir.

Eninə profillərdə qeyd olunan dalğaların və ümumi dərinlik nöqtəsi üsulu (ÜDNÜ) ilə işlənilmiş profillərdə alınmış məlumatların birgə təhlili əsasında yataq tipli anomaliyaların dərinlikləri təyin olunmuşdur. Belə ki, YTA-ların Naftalan - Şimali Naftalan - Gödəkboz sahələrində Üst Təbaşir çöküntülərinə və Orta Eosen çöküntülərinin tavanına, Qazanbulaq-Borsunlu-Ziyadxan sahələrində Eosen çöküntülərinin pazlaşdığı zonalara, Dəliməmmədli strukturunun tağ və tağyanı hissələrində Mezozoyun səthindən 500-600 m dərinliyə uyğun gəlməsi müəyyənləşdirilmişdir.